## Qanunçuluq

### Əmək müqaviləsi

Əmək Məcəlləsinin 7.1-ci maddəsində qeyd edilmişdir ki, işçilərin əmək hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatlarının minimum səviyyəsi Əmək Məcəlləsinin 1-ci maddəsində göstərilən normativ hüquqi aktlarla müəyyən edilmiş hüquq normaları ilə təmin edilir. Bu Məcəllənin 7.2-ci maddəsinin tələblərinə əsasən, əmək münasibətləri yazılı formada əmək müqaviləsi bağlandıqda yaranır. Əmək Məcəlləsinin 3.5-ci maddəsinə görə, əmək müqaviləsi - işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir. Qeyd edilənlərlə yanaşı, Əmək Məcəlləsində əmək müqaviləsnin məzmunu, forması, müddəti ilə bağlı müddəalar müəyyən edilmiş və əmək müqaviləsi üzrə işçinin və işə götürənin hüquq və vəzifələri təsbit olunmuşdur.

Əmək Məcəlləsinin 15-ci maddəsində göstərilir ki, Əmək Məcəlləsinin və əmək qanunvericiliyinə dair digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanı (Əmək və Əhalinin Sosial Müdafiyəsi Nazirliyi) həyata keçirir. Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan öz səlahiyyəti çərçivəsində əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxslərdən yol verdikləri hüquq pozuntularının aradan qaldırılmasını tələb etmək, onları Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş hallarda və qaydada inzibati məsuliyyətə cəlb etmək və digər məsuliyyətə cəlb olunması üçün müvafiq orqanlar qarşısında məsələ qaldırmaq hüququna malikdir.

Bunlarla yanaşı, Əmək Məcəlləsinin 42-ci maddəsinin tələblərinə əsasən, əmək müqaviləsinin tərəflərindən biri işəgötürən, digəri isə işçidir. On beş yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsinin tərəfi ola bilər.

Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamadan işəgötürənlər tərəfindən fiziki çəxslərin hər hansı işin yerinə yetirilməsinə cəlb edilməsi qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə səbəb olur. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə görə, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontrakt) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxsin hər hansı işin (xidmətin) yerinə yetirilməsinə cəlb edilməsinə görə, vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda çərimə edilir.

Vergi Məcəlləsinin 58.10-cu maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) bağlamadan işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi Məcəlləsinin 150.2-ci maddəsinə əsasən, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər, sahibkarlar və xüsusi notariuslar ödəmə mənbəyində vergini tutmağa və dövlət büdcəsinə ödəməyə borcludurlar. Bununla yanaşı, Vergi Məcəlləsinin 67.5-ci maddəsində qeyd edilmişdir ki, vergi orqanları tərəfindən muzdla işləyən fiziki şəxslərin gəlir vergisini əlaqəli məlumata əsasən hesablamaq qeyri-mümkün olduqda və ya fiziki şəxslərin işləməsi rəsmiləşdirilmədikdə vergi orqanı gəlir vergisinin məbləğini ötən ilin ölkə üzrə orta aylıq əməkhaqqı əsasında hesablayır.

Qeyd edək ki, Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli miqdarda vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayət əməli hesab edilir və qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Göründüyü kimi, əmək müqaviləsi bağlamadan işçilərin hər hansı işə cəlb edilməsi, onların əmək hüquqlarının pozulması ilə yanaşı, vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılmasına görə işəgötürənin qanunla müəyyən edilmiş hallarda cinayət məsuliyyətinə cəlb olunmasına səbəb olur.

Hüquq idarəsi